


# Sənayenin qeyri-neft sektorunda inkişaf tempi yüksəkdir

**Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-iyun aylarında sənayenin qeyri-neft-qaz sektorunda məhsul istehsalı 6,5 faiz artmışdır.**

Müşahidə edilən bu yüksək artım ölkədə qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən islahatların məntiqi nəticəsidir. Hesabat dövrünün statistik rəqəmlərinə diqqət yetirdikdə görürük ki, sənayenin qeyri-neft-qaz sektorunda elə sahələr var ki, burada məhsul istehsalı faizlə deyil, dəfələrlə artıb. Məsələn, cari ilin yanvar-iyun aylarında ötən ilin müvafiq dövrü ilə müqayisədə stolüstü kompüterlərin istehsalında 3,3, ölçmə cihazlarının istehsalında isə 2 dəfə artım qeydə alınmışdır.

Ölkədə sahibkarlığın inkişafı sənayedə özəl sektorun payının artmasını təmin edən əsas faktordur. Hesabat dövründə sənayedə qeyri-dövlət sektorunun payının 85,5 faiz olması da bunun sayəsindədir. Söz düşmüşkən qeyd edək ki, 6 ay ərzində emal sənayesində 8 milyard 797 milyon manatlıq məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə içki istehsalında 26,5, qida məhsullarının istehsalında 11,9, tütün məhsullarının istehsalında 7 faiz artım müşahidə olunmuşdur. Bu dövr həmçinin üzüm şərabının istehsalı 69,5, şəkərli qənnadı məmulatlarının istehsalı 24,7, unlu qənnadı məmulatlarının istehsalı 24, meyvətərəvəz konservlərinin istehsalı 4,5 faiz artmışdır. Artım habelə toxuculuq sənayesində qeydə alınmışdır - 48,7 faiz. Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində isə 1 milyard 16,3 milyon manatlıq məhsul istehsal olunmuşdur. 6 ay ərzində kimya sənayesi məhsullarından etilen istehsalı 53,5, polietilen istehsalı 54, propen (propilen) istehsalı 45,8, sərt plastmasdan borular, borucuqlar, qolçaqlar və şlanqların istehsalı 36,9, plastmas çubuqlar, millər və protillərin istehsalı 17,4 faiz artmışdır.

Tikinti materiallarına gəldikdə bu sahə üzrə yanvar-iyun aylarında 494,6 milyon manat dəyərində məhsul istehsal olunmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 20,3 faiz çoxdur. 6 ay ərzində tikinti gipsinin istehsalında 96,2, əhəng istehsalında 52,8, tikinti şüşəsinin istehsalında 31,7, beton istehsalında 14,9 faiz artım olmuşdur.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*



Azərbaycan.- 2023.- 30 iyul.- S. 6.